# 157 saylı məktəbdə "Bilik günü"





Binəqədi rayonunda yerləşən Famil İsgəndərov adına 157 saylı orta məktəbdə "Bilik günü" münasibətilə təşkil olunan tədbirdə məktəbin direktoru Gülayə Səttarova şagirdləri, valideynləri, pedaqoji kollektivi və qonaqları salamlayaraq, onlara yeni tədris ilində uğurlar arzulayıb. G.Səttarova ölkəmizdə aparılan təhsil islahatlarından, təhsilə göstərilən diqqət və dövlət qayğısından danışıb. Rəhbərlik etdiyi məktəbin də dövlət tərəfindən əsaslı təmir edildiyini xüsusi vurğulayaraq, Prezident İlham Əliyevə və ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya dərin təşəkkürünü bildirib.

Qeyd olunub ki, bu il məktəbi 74 nəfər məzun bitirib, onların 57-si ali məktəblərə qəbul olub. Yeni dərs ili münasibətilə şagirdləri və pedaqoji kollektivi təbrik edən qonaqlar ilk dərs gününün təəssüratlarını bölüşüblər.

Şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyib, mahnılar oxuyublar. Sonda "Bilik günü"nün ilk zəngi çalınıb və birincilər böyük sevinclə sinifə daxil olublar.

**M.MUSTAFAYEV.**